**2026-cı ilin mart ayı ərzində müayinə keçirilən zaman sayğaca müdaxilə, habelə qanunsuz qoşulma halları aşkar edildikdə qanunvericiliklə nəzərdə tutulmuş tədbirlərin görülməsinin monitorinqinin nəticələri barədə məlumat**

Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Enerji tənzimləmə və monitorinq departamentinin Müayinə və texniki xidmətin monitorinqi sektorunun əməkdaşları tərəfindən 2026-cı ilin 2 mart tarixindən 31 mart tarixinədək olan müddətdə qazpaylayıcı sistem operatoru tərəfindən Reyestrə daxil edilmiş müayinə və texniki xidmət məlumatlarının toplanılması, qiymətləndirilməsi, təhlili və yoxlanılması üsulu ilə müayinə zamanı sayğaca müdaxilə, habelə qanunsuz qoşulma halları aşkar edildikdə "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununun 13.8-ci maddəsində nəzərdə tutulmuş tədbirlərin görülməsi vəziyyətinin müəyyən edilməsi məqsədilə monitorinqlər keçirilmişdir.

Monitorinqlər nəticəsində 6 müayinə aktı üzrə yaşayış evində sayğacdan kənar qaz xəttinə qanunsuz qoşulmaqla, eyni zamanda 66 müayinə aktı üzrə yaşayış mənzillərinin qaz xəttində istismar olunan sayğaca müdaxilə etməklə təbii qazdan qanunsuz istifadə edildiyi aşkar olunsa da qazpaylayıcı sistem operatoru tərəfindən həmin halların qanunvericiliklə müəyyən edilmiş qaydada rəsmiləşdirilmədiyi və aidiyyəti üzrə göndərilmədiyi müəyyən edilmişdir.

Aşkar olunmuş pozuntuların aradan qaldırılması məqsədilə qazpaylayıcı sistem operatoruna icrası məcburi olan göstəriş verilmişdir.